

# O gecə biz də şəhid ola bilərdik

**Zaman o zaman, aylar o aylar idi ki, hər gün Azadlıq meydanında mitinq keçirilirdi. İnsanlar işdən sonra meydana toplaşır, hərəkat üzvləri tribunadan xalqı milli azadlıq mübarizəsinə, bu mübarizədə fəal iştirak etməyə çağırırdılar. Hamı kimi mən də həmin mitinqlərdə iştirak edirdim.**

1990-cı il yanvar ayının 19-u idi. Şəhərdə demək olar ki, iş dayanmışdı. Sovet qoşunları Bakını mühasirəyə almışdı. Mərkəzi Komitənin qabağında iki-üç gün idi ki, izdihamlı mitinq keçirilirdi. Xalq sovet qoşunlarının geri çəkilməsini tələb edirdi. Danışırdılar ki, qoşun şəhərə daxil olacaq. Respublika rəhbərliyi isə bu deyilənləri təkzib edərək şayiə olduğunu bildirirdi.

Həmin gün yenə də işdən çıxıb Mərkəzi Komitənin qabağına getmişdim. "Baksovet" (indiki "İçərişəhər" metrosunun ətrafı) izdiham içində idi. Tribunada mitinqi idarə edən şəxs toplaşanları dəstə-dəstə Bakının ətrafına - tankların qabağına getməyə səsləyirdi. Çox dayanmadım, bir qədər sonra evə döndüm. Az sonra nişanlım gəldi. Ona şəhərdəki vəziyyətdən, Mərkəzi Komitənin qabağındakı mitinqdən, aparıcının çağırışlarından danışdım. Söylədim ki, vəziyyət ciddidir, nəsə baş verəcək. Bu vaxt küçədən səs eşitdik. Səsgücləndirici ilə əhalini Mərkəzi Komitənin qabağına çağırırdılar. Bunu eşidən nişanlım paltosunu geyinib qapıya tərəf getdi, dalınca mən də çıxdım.

Mərkəzi Komitənin qarşısında izdiham on dəfə, yüz dəfə çox artmışdı. İnsanlar keçmiş Kommunist küçəsi boyu səpələnmişdilər. Mitinqin aparıcısı tribunada öz missiyasını yerinə yetirirdi: "20 nəfər "Əzizbəyov" metrosunun ətrafına... 15 nəfər Sabunçu dairəsinə... 25 nəfər Salyanski kazarmanın yanına...10-15 nəfər Biləcəri tərəfə..."

Saat 24 tamamda avtovağzal tərəfdən güllə səsləri eşidilməyə başladı. Elə bildik ki, havaya güllə atırlar. Bu vaxt bir avtomobil izdihama yaxınlaşdı. İçindəkilər düşüb həyəcanla dedilər: "Dağılışın, ruslar gəlirlər". Camaat inanmadı, yerbəyerdən etiraz etdilər: "Ola bilməz, əliyalın, günahsız insanları niyə öldürsünlər ki?! Qoy gəlsinlər, tərpənməyəcəyik".

Mitinqi idarə edən tribunadan səsləndi: " İnanmayın, camaat, təxribatdır, onların dediyinə uymayın, heç yana getməyin". Biz özümüzdə deyildik, o baş-bu başa var-gəl edirdik. Soyuq havanın belə fərqində deyildik. Bilmirdik neyniyək, deyilənlərə inanaq, yoxsa inanmayaq. Hər halda mən inanmırdım. Saat biri keçmişdi. Nazimə dedim:

- Gəl gedək evə, artıq dura bilmirəm. Yalan danışırlar, inanma onlara, əliyalın, günahsız adamlara güllə atmazlar.

Nazim baxdı ki, mən titrəyirəm:

- Qorxursan?
- Yox, niyə qorxuram ki?!
- Üşüyürsənmi?
- Hə, üşüyürəm, - deyə tələsik cavab verdim.

Əslində, titrəməyim üşüdüyümdən deyil, qorxumdan idi. Nazimdən dolayı qorxurdum. Qorxurdum ki, gələn xəbərlərin təsiri altında güllələr atılan tərəfə gedər. Ona görə də hər vəchlə çalışırdım ki, onu buraxmayım. Narazı-narazı dilləndi: "Yaxşı, gedək, sən mənə mane oldun..."

Biz metronun "Bakı soveti" stansiyasına tərəf getdik. Qatarlar işləyirdi, özü də pulsuz. Dinməz-söyləməz eskalatorla aşağı düşdük. Fikirləşirdim: "Nazim olmasaydı mən də gedərdim, bəlkə yalan danışırlar. Nə də razı olmur ki, birlikdə gedək görək nə var, nə yox". Əmin idim ki, o da eynilə mənim kimi düşünür. Sonralar biz o gecəni müzakirə edəndə Nazim yanılmadığımı, mənim kimi düşündüyünü söylədi.

Perronda seyrək adam var idi. Qatar gəldi. Vaqona daxil olanda gənc bir oğlanın ağladığını gördük. Nazim ondan ağlamağının səbəbini soruşanda oğlan göz yaşlarını yumruğu ilə silərək dedi: "Avtovağzalın qabağında camaatı qırdılar. Qıza, gəlinə, uşağa, qocaya, cavana belə baxmadılar, hamısını güllələbaran etdilər. Güclə qaçıb canımı qurtarmışam".

Mən yenə də inanmadım. Nazim dönüb mənə baxdı. Mən o an nişanlımın gözlərindən çıxan acı bir təəssüf, həyəcan, nifrət və intiqam hissini gördüm. Üstəlik, gözləri məni də məzəmmət edirdi, sanki günahkar mən idim. "Axx, sən qoymadın məni", - deyə dişlərini qıcadı.

O gecə biz də şəhid ola bilərdik. Lakin Tanrı bizi bu taledən yan qaçırdı...




❖ ❖ ❖

Yuxudan oyananda eşitdim ki, gecə qırğın olub. Nazimgilə zəng vurdum, evdə yox idi, şübhələndim. Sanki sinəmdə ürəyim qırıldı. Ayağa durub "Baksovet"ə yollandım. Onu Mərkəzi Komitənin qabağında tapacağım ümidilə metroya mindim. Çıxanda gözlərimə inanmadım. Kommunist (indiki İstiqlaliyyət) küçəsinin başlanğıcından düz Mərkəzi Komitənin qabağınadək tanklar düzülmüşdü. Hər tankın üstündə əli avtomatlı dörd əsgər var idi. İlk dəfə idi ki, gerçək tank görürdüm. Vahimə məni bürüdü. Mərkəzi Komitənin qarşısına getdim. Axşamkı aparıcı hələ də tribunada idi. Bu dəfə də durmadan, dünənkindən fərqli - axtarış elanları verirdi...

Metronun yanına döndüm. Burada iş yoldaşımı gördüm. Yenicə söhbətə başlamışdıq ki, birdən güllə səsləri ətrafı başına aldı. Tanklardan metroya tərəf güllə yağırdı. Metronun qabağına toplaşanlar İçərişəhərə tərəf qaçmağa başladılar. Sağımdan, solumdan, başımın üstündən uçan güllələrdən yayınaraq yeraltı keçidin yanındakı iri ağacın arxasında gizlənməyə macal tapa bildim. Atəş səsləri kəsiləndən sonra dönüb arxaya baxanda gördüm ki, bir-iki addım aralıda bir nəfər yerdə qan içindədir. Bu, mənim müəllimim idi. Jurnalistika fakültəsində dərs deyən Əliş Nəbiliyə güllə dəymişdi. Qışqırmaq istədim, səsim çıxmadı. Məndən ötən güllə müəllimimə dəymişdi. İnsanlar Əliş müəllimin başına toplaşdılar. Təcili yardım maşını gəlib onu apardı. Xoşbəxtlikdən Əliş müəllim həmin güllədən sağaldı, hələ bir müddət işlədi də...

Yenidən Mərkəzi Komitənin qabağına döndüm. Gözlərim hər yanda Nazimi axtarırdı. Bir qədər mitinqdə iştirak etdikdən sonra evə qayıtmaq qərarına gəldim. Fikirləşdim ki, Nazim evdə olacaq, onu burada axtarmağım əbəsdir. Filarmoniyanın qabağındakı izdihamın arasından yol açıb kecmək istəyirdim ki, gördüm sürətlə gələn BMP (piyadaların döyüş maşını) düz izdihamın üstünə yeriyir. İnsanlar qaçmağa başladılar. Lakin qaça bilməyib BMP-nin təkərlərinin altında qalanlar da çox oldu.

Evə necə çatdığımı bilmədim. Oturub başımı əllərimin arasına alaraq nə baş verdiyini fikirləşəndə yadıma düşdü ki, həmin an metroya tərəf qaçan insanların basabasında metroya düşə bilməmişdim. Piyada "28 May" metrosuna tərəf gedənlərə qoşulmuşdum. Bir də onu xatırladım ki, yolu itirmişdim, bir nəfər oğlan əlimdən tutub metroya düşürmüşdü. Sonrası yadımda deyildi...

Nazim axşam gəldi. Demə, gecəni yata bilməyib, zəng vurub, cavab verməmişəm. Sonra da evə gəlib qapını döyüb, açmamışam. Əmin olub ki, "Baksovet"ə getmişəm, dalımca ora yollanıb. Və biz bir-birimizdən xəbərsiz Kommunist küçəsi boyu adamların arasından axtarışa çıxmışıq.

Hər ikimiz baş verən faciənin təsiri altında idik. Gördüklərimizi, eşitdiklərimizi danışır, bir-birimizə təsəlli verirdik. Lakin heç birimiz şokdan ayıla bilmirdik. Hələ faciə baş verməmişdən əvvəl televiziyanın enerji bloku partladığı üçün informasiya qıtlığı idi. Radiosu olanlar "Azadlıq", "Bi-Bi-Si", "Amerikanın səsi" radiostansiyalarına qulaq asır, baş vermiş hadisə barədə birtəhər məlumat əldə edirdilər.

Gecəni yata bilmədim. Gözümü yuman kimi səhər gördüyüm tanklar, avtomatlardan açılan güllələr, BMP-nin təkərləri altında qalan günahsız insanların qışqırtısı, bağırtısı göz qapaqlarımı açmağa vadar edirdi. Özümdən asılı olmayaraq hönkür-hönkür ağlayırdım...

O vaxtdan 35 il keçib. Hələ də o günlərin ağrısı ürəyimdən asılıb. Yadıma düşəndə hadisənin fəlakətində qıvrılıram.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 19 yanvar (№ 12).- S.10.